

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 199 (23.611)

*18 noyabr 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar. Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib. Artıq bu yolun inşasına start verilib. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış olublar.

Prezident İlham Əliyev Füzuli-Şuşa avtomobil yolunun təməli qoyulması münasibətilə bütün Azərbaycan xalqını təbrik edib. Ölkə başçısı deyib ki, noyabrın 10-da düşmən faktiki olaraq kapitulyasiya aktını imzalamışdır. Bu gözəl hadisə münasibətilə bütün Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

* * *

Dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinə gəliblər. Prezident İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırıb. Prezident İlham Əliyev deyib ki, düşmən hər şeyi dağıdıb, talan edib, bizim mədəni, tarixi, dini irsimizi silmək istəyib, ancaq istədiyinə nail ola bilməyib. Bundan sonra bu torpaqda biz yaşayacağıq, necə ki, əsrlərboyu biz yaşamışıq, bizim xalqımız yaşayıb.

* * *

Dövlətimizin başçısı və birinci xanım Xudafərin körpüsünə gəliblər. Prezident İlham Əliyev Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını qaldırıb.

Dövlətimizin başçısı, Ali Baş Komandan Cəbrayıl şəhərində də üçrəngli bayrağımızı qaldırıb. Binalara baxış zamanı bildirilib ki, yeni böyük baş plan tərtib ediləcək, bütün infrastruktur yaradılacaq.

## Naxçıvanda şəhidlər böyük ehtiramla qarşılanıb





1990-cı il noyabrın 17-də Naxçıvan Ali Sovetinin sessiyasında ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə müstəqil dövlətçiliyimizin bərpası istiqamətində mühüm tarixi qərarlar qəbul olunmuşdur. Həmin gün üçrəngli dövlət bayrağımız Naxçıvanda qaldırılmışdır. Dahi şəxsiyyətin rəhbərliyi ilə 1990-1993-cü illərdə muxtar respublika işğaldan qorunmaqla yanaşı, həm də ordu quruculuğu sahəsində mühüm işlər görülmüş, müzəffər Azərbaycan Ordusunun əsası qoyulmuşdur. Bu gün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də ulu öndərin yolunu davam etdirərək ordu quruculuğuna xüsusi diqqət yetirir. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsi olaraq Naxçıvan Muxtar Respublikasında da müdafiə təhlükəsizliyi ilbəil möhkəmləndirilir, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılır. Elə bunun nəticəsidir ki, Vətən müharibəsində Naxçıvandan olan hərbi qulluqçular da böyük şücaət göstərmiş, şəhidlik zirvəsinə ucalmışlar.

Noyabrın 17-də Naxçıvan Beynəlxalq Hava Limanında şəhidlərimizin qarşılanma mərasimi olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Dövlət və hökumət nümayəndələri, Türkiyənin Naxçıvandakı Baş konsulu və Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəliyinin zabitləri, şəhidlərin ailə üzvləri də tədbirdə iştirak etmişlər.

Şəhid olan hərbi qulluqçularımız Vəliyev İsmayıl Mehman oğlunun, Novruzlu Pərviz Qorxmaz oğlunun, Əliyev Ramil Qurban oğlunun, Nəcəfov Yaqub Məhəmməd oğlunun və Alməmmədov İman Tarverdi oğlunun üçrəngli bayrağımıza bükülmüş cənazələri hərbçilərin müşayiəti ilə mərasim yerinə gətirildi.

Şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Ali Məclisin Sədri şəhidlərin xatirəsinə ehtiramını bildirdi.

Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgərləri tərəfindən yaylım atəşi açıldı.

Sonra "Qurani-Kərim"dən ayələr oxundu, şəhid cənazələrinin önündən keçildi.

Şəhidlərin cənazələri doğulduqları şəhər və kəndlərə yola salındı.

Ali Məclisin Sədri şəhidlərin ailə üzvləri ilə görüşərək onlara başsağlığı verdi.

30 il əvvəl Naxçıvan Muxtar Respublikasında qaldırılan Azərbaycanın üçrəngli dövlət bayrağı bu gün vətənpərvər oğulların rəşadəti sayəsində işğaldan azad olunmuş torpaqlarda dalğalanır. Bayraq hər bir ölkənin varlığının göstəricisi, xalqın and yeridir. Vətən yolunda canlarını qurban verən şəhidlərin üzərinə bayrağın örtülməsi də onun müqəddəsliyinin təzahürüdür. Çünki şəhidlərimiz üçrəngli bayrağımızın daim dalğalanması üçün ölümün gözünə dik baxanlardır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Qələbə fədailəri

Gözümüzü dünyaya açandan ata-babalarımızın Vətən uğrunda mübarizə əzminin sədaları altında böyümüşük. Bu gün hər bir Azərbaycan övladı dərk edir ki, özünü vətəndaş sayan heç bir şəxs Vətənin dərdinə biganə qala bilməz. Nəinki əsgəri, hərbçisi hər bir mülki vətəndaşı belə, düşmənlə döyüşdə Vətən naminə ölümə hazır olan bir xalqı əzməyə heç bir qüvvə yetməz. Çünki hər bir ölkənin qüdrətini göstərən əsas cəhətlərdən biri onun xalqının, ordusunun və əsgərinin vətənpərvərlik ruhudur. Əgər bu ruh yoxdursa, Vətənin etibarlı müdafiəsindən danışmağa dəyməz. Sentyabr ayının 27-dən başlayaraq düşməni geri çəkilməyə, təslim olmağa məcbur edən də elə bu ruh yüksəkliyi, ordumuzun qorxmaz, igid oğullarının mübarizə əzmi, dövlətçiliyimizin sarsılmaz dayaqları oldu. Bu gün Qələbə sevincini yaşayan xalqımızın qəlbində bir kədər də var. 44 gün davam edən müharibədə düşmənlərimizdən Xocalı, 20 Yanvar, Bərdə, Gəncə qətliamlarının qisasını alaraq şəhid olan oğullarımızın yaxınlarının üzüntüsü. Ordumuzun apardığı uğurlu əks-hücum əməliyyatları zamanı şəhid olanlar arasında qəhrəmanlar Vətəni olan Naxçıvanımızın da igid oğulları vardır. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin də xalqa müraciətində dediyi kimi: ***"Naxçıvanlılar da ikinci Qarabağ müharibəsində bütün digər bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır. Bəzi bu günə qədər açıqlanmayan məsələlər də üzə çıxacaq. Və hər kəs biləcək ki, bütün başqa bölgələrdən olan hərbçilərlə bərabər, naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər. Və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər. Şəhidlər veriblər".***

Naxçıvan yenə də Vətən torpağı uğrunda canlarından keçən cəsur, igid oğullarını böyük izdihamla qarşılayıb. Şəhid olan hərbi qulluqçularımız Vəliyev İsmayıl Mehman oğlu Naxçıvan şəhərində, Novruzlu Pərviz Qorxmaz oğlu Şərur şəhər Şəhidlər xiyabanında, Əliyev Ramil Qurban oğlu Babək rayonunun Güznüt kəndində, Nəcəfov Yaqub Məhəmməd oğlu Culfa şəhərində, Alməmmədov İman Tarverdi oğlu Şahbuz rayon Kolanı kəndində son mənzilə yola salınıblar.

Qələbə fədailəri olan bu oğullarımızın dəfn mərasimlərində dövlət və hökumət nümayəndələri, həmçinin ictimaiyyət nümayəndələri, Ali Məclisin deputatları, Əlahiddə Ümumqoşun Ordunun, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmiləri, minlərlə sakin iştirak edib.

Mərasimlərdə iştirak edənlər şəhidlərin ailələrinə dərin hüznlə başsağlığı veriblər. Onlar bildiriblər ki, Azərbaycan Ordusu şəhidlərimizin qanını yerdə qoymadı. Bu gün xalqımızın yaşadığı Qələbəni elə bu oğullarımız öz qanları ilə Azərbaycan tarixinə yazdılar. Qəhrəmanlıqlarla dolu olan, uca bir zirvəyə yüksələn şəhidlərimizin ömür yolu nə qədər qısa olsa da, şərəfli və gələcək nəsillər üçün örnək sayılır. Azadlığımızı, tariximizi canı ilə qazanıb qanı ilə yazanları, bu yolda canından keçənləri yad etmək, xatırlamaq, gələcək nəsillərə çatdırmaq üçün hər birimiz üzərimizə düşən işin öhdəsindən layiqincə gəlməliyik. Bu işdə mən, sən deyil, – biz olmalıyıq. Biz özümüz özümüzü, dünənimizi, bu günümüzü bütün dünyaya tanıtmalıyıq. Bu yolda ən müqəddəs vəzifəmiz isə şəhidlərimizi, tarixi qələbəmizin fədailərini, onların qəhrəmanlığını gələcək nəsillərə çatdırmaqdır.

Şəhid yaxınları bu gün xalqımızı, əsgər və zabitlərimizi, bütün xarici təzyiqlərə sinə gələrək sona qədər döyüş əmri verən Ali Baş Komandanımızı tarixi Qələbəmiz münasibətilə təbrik edərək qəhrəman oğulları ilə fəxr etdiklərini bildirib. "Azadlıq istəyən xalqın şəhidi də olmalıdır. Bu mücadilədə mənim, sənin, onun övladıdır, fərqi yoxdur", – deyiblər.

Sonra şəhidlərin ruhuna dualar oxunub, yaylım atəşi açılıb, üçrəngli bayrağımız onların doğmalarına əmanət olunub.

✍ **Telli MƏMMƏDOVA**

# Qürurluyuq, sevincliyik, doğma torpaqlarımız özümüzə qayıdır

*Neçə gündür ki, böyükdən-kiçiyə bütün Azərbaycan sevinc göz yaşları içərisindədir. “Qarabağ əzəli sahibinə qayıdıb, Şuşa bizimdir, Laçın bizimdir!” “Şəhidlərimizin qisası alındı, onların ruhu ağ göyərçinə dönüb Qarabağımızın azad səmasında qanad çalır!” kimi şüarlar dolaşır hamının dilində. Hər kəs qürurlu və sevinclidir. Amma aramızda elələri də var ki, onların sevinci tam başqadır. Bəli, onlar illərdir, öz yurdlarından zorla qovulub məcburi köçkün kimi vaxtilə qışın soyuğunda, yayın istisində çadırlarda yaşamağa məcbur olan insanlardır. Biri Cəbrayıldan, biri Şuşadan, digəri Zəngilandan, Qubadlıdan və işğalda olan başqa torpaqlarımızdan silah gücünə çıxarılanlar. İllərdir, o gün gələcək, – deyib ordusuna, dövlətinə, dövlət başçısına ümid bəsləyənlər. Artıq o ümid doğrulub. Bununla hamımızın arzusu yerinə yetib. İşğaldan qarış-qarış azad edilən torpağımızın ən yüksək zirvəsinə sancılan bayrağımız hər birimizin ürəyini dağa döndərib. Yurdlarından qovulanda özləri ilə təkcə evinin qapılarının açarlarını götürən, son nəfəsində: bax o sandıqda evimizin açarları var, onları qoruyun, yurdumuz alınanda qapımızı açarsınız, deyənlərin arzusu yerinə yetib.*



Bu gecə yuxuda evimizi görmüşəm, görəsən, nə vaxt bir də görəcəyəm həyətimizi? Qış da gəldi, görəsən, Şuşaya qar yağıbmı? Yaz gəldi, xarıbülbül açıbmı, görəsən, biz olmadan? Bəs nə vaxt çəkəcəyəm Zəngilanın havasını ciyərlərimə? – deyən neçə-neçə insanın sualları da bitdi artıq. Bu suallar da bitdi, yurd həsrəti də. Yurd həsrəti sona yetən vətəndaşlarımızın hərəsi bir eldən, obadan öz səsini çatdırır xalqımıza. Qədim Naxçıvanımızda yaşayan bir neçə qarabağlı da öz sevincini bizimlə bölüşdü.

Mübariz Mirzəyev bir neçə ildir, yurdumuzda yaşayır. O, dağlar gözəli Qarabağın almaz qaşı, Azərbaycanın musiqi beşiyi, Azərbaycan əsgərinin, sadəcə, Vətən sevgisi ilə ağır silahsız və texnikasız azad etdiyi Şuşa şəhərinin sakinidir. Mübariz deyir:

– Vətənimizin hər qarışı bizim üçün əzizdir, müqəddəsdir. Amma insanın dünyaya göz açdığı yer daha əziz olur desəm, kimsə məni qınamaz. Vəzifəsindən, cəmiyyətdə tutduğu mövqeyindən asılı olmayaraq, hər kəs dünyaya göz açdığı kəndi, şəhəri, qəsəbəni daha çox sevir. İllərdir, sevgimiz həsrətə dönmüşdü. Düz 28 il elimizdən, evimizdən ayrı düşüb öz doğma torpaqlarımıza qayıtmaq arzusu ilə yaşayırdıq. Məcburi köçkün, qaçqın adını daşımaq məcburiyyətində qalmışdıq. Düşündəndə ki, böyüdüyüm evdə ermənilər yaşayır, gəzdiyim Cıdır düzündə, İsa bulağında, Çətir şəlaləda, Topxana meşəsində onlar istirahət edir – ürəyim yanırdı. Amma heç vaxt ümidimizi itirmirdik. Həmişə inanırdıq, gözləyirdik bu günü. Şükür Böyük Yaradana ki, o gün gəldi. Tanrı da haqqımızı haqq elan etdi. Vətənin şanlı oğulları dilində Vətən nəğməsi, könlündə Qarabağ yanğısı, ürəyində düşmənə nifrət hissi ilə döyüşə atıldı. İkinci Qarabağ müharibəsi başlayan gündən Şuşanın işğaldan azad ediləcəyi xəbərini eşidəcəyim anı səbirsizliklə gözləyirdim. Ali Baş Komandan hər dəfə xalqa müraciət edəndə, azad edilən kənd və şəhərlərin adını çəkəndə sevincimdən özümə yer tapa bilmirdim. Və azad olunan torpaqların adı birbir çəkiləndə qəhrəman oğullarımızın Şuşaya – evimizə çatdıqlarını hiss edirdim.

İndiki gücümüz və Vətən sevgimiz həmin illərdə də var idi. İçimizdəki xəyanətkarlar olmasaydı, o mənfurlar Şuşanı işğal edə bilməzdilər. Bir xəyanətə qurban getdi Qarabağın almaz qaşı. Şuşanın belə qısa müddətdə süqut etməsinin səbəblərindən biri şəhərin müdafiəsinin yetərincə təşkil olunmaması idi. Ermənistan Şuşa ətrafına çoxsaylı hərbi texnika və canlı qüvvə yığmışdı, şəhərə hücumda 100-dək zirehli maşın və tank, 11 min canlı qüvvə iştirak edirdi.

Erməni silahlı birləşmələrinin tərkibində, hətta xaricdən gətirilmiş muzdlular da döyüşürdülər. O illəri xatırlamaq çox acıdır. İçimizdəki sapı özümüzdən olan baltalar olmasa idi, biz 28 il həsrətlə yaşamazdıq. Şükür, Allaha ki, bu günü bizə yaşatdı. Həsrətimiz bitdi. Yolumuz açılır, buradan – Şərqin qapısından Şuşaya öz avtomobilimizlə rahatlıqla gedəcəyik.

Müsahibim onu da deyir ki, çox vaxt hər il sentyabr ayında Şuşaya qar yağardı. Havalar soyuyardı. Amma bu il yağmadı o qar. Sanki öz sahibinin yolunu gözləyirdi. Hiss edirdi əsl yiyəsinin gəldiyini. Yağmadı qar, çünki yağıb özününkülərin yolunu bağlamaq istəmədi. Hava şəraitinin də yaxşı olması oğullarımıza kömək etdi. İllərdir, torpağımız qayıtsın, – deyib dua edən insanların arzusu yerinə yetdi. Şuşadan videokadrlar yayılanda gördüm evimizi, uşaqlığım, gəncliyim yadıma düşdü. Ömrümün ən gözəl illərini orada, yuxarı dördyolda yerləşən məhəlləmizdə keçirmişəm. İndi ən böyük arzum oraya qayıtmaqdır. Ötən gün Şuşada Gövhər ağa məscidində azan verən Azərbaycan əsgərini görəndə sevincimdən ağladım. İllərdir, o gözəl torpaq bu səsə, əzizlərinə həsrət qalmışdı. Böyük zəfərin xəbərçisi oldu Şuşa. Yaşasın ordumuz, ruhu şad olsun şəhidlərimizin.

Cəbrayıl rayonunun sakini Əfqan Hüseynov Sədərək kənd tam orta məktəbində müəllim işləyir. Onun atası Cəbrayıl şəhərindəndir, anası isə naxçıvanlı qızıdır. Əfqan müəllim Cəbrayılda dünyaya göz açıb, böyüyüb. Deyir ki, uşaqlığımın, gəncliyimin ən gözəl illərini orada keçirmişəm. Təhsil almaq üçün buraya gəldim və ailə qurub, işləyib Naxçıvanda yaşamağa başlamışam. Əvvəllər tez-tez gedərdik Cəbrayıla, amma münaqişə başlayandan sonra yollar bağlandı və bir neçə il sonra rayonumuz işğal edildi. Gediş-gəliş dayandı. Uzun illərdən sonra Cəbrayılı qəlbi Vətən eşqi ilə döyünən oğullarımız azad etdi. Cəbrayıl işğaldan azad edilən ilk şəhər oldu. Ayağı sayalı oldu Cəbrayılın. Onun ardınca Füzuli, Zəngilan, Qubadlı döyünən ürəyimiz, mədəniyyət beşiyimiz Şuşa da azad edildi. Vətən torpağının hər qarışı üçün canından keçən igid oğullarımızın – şəhidlərimizin ruhu qarşısında baş əyirəm. Silah tutan əlləriniz var olsun, Azərbaycanımızın aslanları, – deyirəm. Çox sağ olun, bu xalq daim sizə minnətdar olacaq. Azərbaycan dövləti yaşadıqca onun tarixinə öz qanları ilə şanlı Qələbəni yazan oğullar da var olacaq.

Leyli Qədimova Sədərək kənd 1 nömrəli tam orta məktəbin müəllimidir. O, Naxçıvan Dövlət Universitetində təhsil alıb. İyirmi altı ildir ki, qədim Oğuz yurdu Sədərəyin gəlinidir. Deyir ki, bura mənim üçün dünyaya göz açdığım Zəngilan rayonunun Alıbəyli kəndi qədər əzizdir:

– Torpağımız işğal ediləndən sonra ailəm Sabirabad rayonunda məskunlaşıb. Yurd həsrəti yaman pis olur. Hər dəfə təyyarə ilə, ya da İran İslam Respublikasından keçib Bakıya gedəndə Zəngilan həsrəti ürəyimi göynədirdi. Kaş bu yol Zəngilana kimi uzanaydı, – deyirdim. Arzuma çatmışam.

Cənab Ali Baş Komandanımızın xalqa müraciətində Zəngilan şəhəri, Alıbəyli kəndi azad edildi, – sözlərini eşitdikdə hansı hissləri keçirdim, nələr yaşadım, nələr düşündüm! Bunu ancaq uzun illər doğma yurduna həsrət qalanlar bilər. Necə deyərlər, dərdlinin dərdini dərdlilər anlayar. Həmin anda mən, sanki quş olub kəndimizə uçmaq, doğma ocaqlarımızı, yurd yerlərimizi görmək, əzizlərimizin məzarını ziyarət etmək istədim. Ürəyimdə həyətimizin torpağından öpmək, əgər qalıbsa, üzümü evimizin divarlarına sürtmək hissi baş qaldırdı. Biranlıq o torpaqlardan çıxdığım çətin günlərə qayıtdım. Soyuq payız günləri idi. Rayonda elektrik enerjisi kəsilmiş, insanlar nə edəcəklərini, hara gedəcəklərini özləri də bilmirdi. Gündüzlər başları iş-gücə qarışsa da, axşamlar bir yerə toplaşıb söhbət edir, bir-birinə təskinlik verirdilər. Radiodan xəbərlərə qulaq asır, ordumuzun irəliləyişini eşidirdik. Haraya irəlilədiyini bilmirdik. Çünki o vaxt Qarabağla yanaşı, ətraf rayonlar da erməni terrorçuları tərəfindən alınmış, Zəngilan isə mühasirədə idi. Çox keçmədi – 1993-cü il oktyabr ayının 29-u bir gün geri dönmək ümidi ilə torpaqlarımızdan, isti ocağımızdan ayrı düşdük. Alnımıza qaçqın, köçkün, didərgin sözləri yazıldı.

13 nəfərlik bir ailə ilə yola çıxdıq, çox çəkmədi ki, qardaşlarım Rusiyaya üz tutdu, bacılarım ailə qurdu, nənəm, atam “Zəngilan” deyə-deyə həyatdan köçdülər. Amma inanıram ki, bu gün onların ruhu şaddır. Axarlı-baxarlı, xan Arazlı, süsən meşəli Zəngilanım bu gün azaddır. Biz isə yurd həsrəti deyil, torpaqlarımıza qovuşmaq arzusu ilə yaşayırıq. Əminəm ki, hərəsi bir yerdə məskunlaşmış ailə üzvlərimiz, nəhayət, bir yerə yığışacaq, süfrə arxasında toplaşıb keçmişin xoş xatirələrindən danışacaq, dünyadan köçmüş əzizlərimizin nigaran ruhu, nəhayət, dinclik tapacaq.

Mən bir zəngilanlı kimi cənab Ali Baş Komandanımıza, müzəffər Azərbaycan Ordusuna ailəmiz adından dərin minnətdarlığımı bildirirəm.

Ziyafət Kazımova dahi Füzulinin adını daşıyan bir elin qızıdır. Onun atası hərbçi olub və bir müddət Şərur rayonunda xidmət edib. Ziyafət Naxçıvan Dövlət Universitetinin Tarix müəllimliyi ixtisasını bitirib, 37 ildir ki, qədim Şərur elinin gəlinidir. Deyir ki, Yuxarı Əbdürrəhmanlı kəndi işğal ediləndə evimizi, elimizi tərk etmək məcburiyyətində qaldıq. Həmin illərdə mən ailə qurmuşdum və Şərur şəhərində yaşayırdım. Kəndimizin, rayonumuzun işğal edildiyindən gec xəbər tutdum. Həmin günlərdə Naxçıvanda da gərgin döyüşlər gedirdi, həyat yoldaşım həkim kimi ön cəbhədə idi. Elektrik enerjisi fasilələrlə verildiyi üçün xəbərlərə baxa bilmirdik. Qazsız, işıqsız qalmışdıq. Blokada vəziyyətinə düşən Naxçıvan informasiya çətinliyi də yaşayırdı. Xəbəri alanda, sanki dünya başıma uçdu. Atamın, əzizlərimizin məzarı olan torpaqlar işğal edildiyi gün həyatımın ən çətin anını yaşadım. Bir övladın ata evini, ata məzarını ziyarət edə bilməməsi necə ağır bir dərddir, bunu ancaq yaşayan bilər. Ulu öndərimiz ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra əks-hücum əməliyyatında rayonumuzun bir çox ərazisi qorundu, bir neçə kəndi və Horadiz qəsəbəsi isə işğaldan azad edildi. Amma kəndimiz neytral zonada qaldığı üçün biz yenə də həsrətlə baxa-baxa qalmışdıq yurdumuza. Bakıda yaşayan anam torpaq həsrətinə dözə bilmədi, dünyadan köçdü.

Torpaqlarımız erməni vandalları tərəfindən işğal ediləndən illər sonra – 2016-cı ilin Aprel döyüşlərində xalqımız həsrətində olduğu qələbə xəbəri ilə açdı bir yaz səhərini, iki il sonra 2018-ci ilin may səhərində isə qədim Naxçıvanımızdan qələbə soraqlı müjdələr qanad açdı doğma Azərbaycanımıza. Və bir neçə gündür ki, şanlı Ordumuzun zəfərini qeyd edirik. Şükür Böyük Yaradana ki, o gün gəldi. Torpağımız Ali Baş Komandanımızın siyasi iradəsi, Ordumuzun gücü ilə azad edildi. Füzuli şəhərinin mərkəzində Azərbaycan Bayrağı dalğalandı. Mən cənab Prezidentin çıxışına



baxarkən işğaldan azad olunan yaşayış məntəqələri arasında Yuxarı Əbdürrəhmanlı kəndinin də adını eşidəndə biranlıq xəyalım o bağlı-bağatlı evimizə uçub getdi. Orada illərdir, bizim yolumuzu gözləyən ata məzarını düşündüm. Mən tarix müəllimi kimi də sevincliyəm. Çünki hər dəfə uşaqlara işğaldan danışanda, həmin qara günlərdən söhbət açanda qəlbim yanırdı. İndi isə qürur dolu tariximizdən, işğaldan azad edilən torpaqlarda igidlik göstərən oğullarımızdan söhbət açacağıq. Artıq Füzulinin, Qubadlının, Zəngilanın işğalından illər ötdü deməyəcəyik. Oğullarımız sildi bu ifadələri öz canları bahasına tarixin səhifələrindən. Onlar zəfər himnini yazdı tariximizə. İgidlərimizin şərəfli ömrü örnək olacaq övladlarımıza. İşğaldan azad edilən torpaqlardan hazırlanan süjetləri, orada dalğalanan üçrəngli bayrağımızı gördükcə qürur duyuram.

Bu sevinci sözlə ifadə etmək mümkün deyil. Ancaq minnətdarlıq hissi ilə ifadə edirəm sevincimi:

– Əbədiyaşar ruhun qarşısında baş əyirik, dahi rəhbər. Yaşa, var ol, Ali baş Komandan, müzəffər Azərbaycan əsgəri! Haqqını bizə halal et bir qarış torpaq uğrunda canından keçən igid Vətən oğlu. Haqqını halal et, övlad böyüdüb Vətən torpağına sipər edən, odu sinəsinə basıb məğrurluqla söndürən Azərbaycan anası! Haqqını halal et, yollara dikilən gözlərinə çökən əbədi həsrəti qürurla əvəz edib şəhid olan həyat yoldaşının cənazəsini çiynində əbədiyyətə yola salmağa aparan Azərbaycan qadını! Haqqınızı Azərbaycan xalqına halal edin, ata nəvazişini, ata sevgisini, üçrəngli bayrağımızın kölgəsində uyuyan məzarlarla əvəz edən şəhid övladları...

Bu gün böyük tarixi qələbəsi ilə öz sözünü döyüş meydanında deyən xalqımızın bir arzusu var: evimizə, elimizə qayıdıb mənfurların xarabaya döndərdiyi yurdumuzu əvvəlki kimi gülüstana çevirmək.

Biz bunu bacaracağıq, necə ki, düşməni qovduq.

Ali Baş Komandanın dediyi kimi: ***“Ermənilər bizim bütün kəndləri dağıdıblar. Elə ediblər ki, azərbaycanlılar daha heç zaman oraya qayıtmasınlar, qayıda bilməsinlər. Amma Azərbaycan xalqının iradəsini bilmirlər. Biz Cocuq Mərcanlını səkkiz aya qurduq. İndi orada insanlar yaşayırlar, qazı da, suyu da, elektriki də, məscidi də, xəstəxanası da, məktəbi də, evlər də var, hər şey var. Bütün o torpaqları biz cənnətə çevirməliyik. O torpaq canlanacaq, oraya həyat qayıdacaq, uşaqların gülüşü gələcək, insanların təbəssümü qayıdacaq”.***

✍ **Ramiyyə ƏKBƏROVA**

# Sertifikatların təqdimatı keçirilib

***Naxçıvan Muxtar Respublikası Turizm Departamentində sanitariya və gigiyena sertifikatlarının təqdimatı keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Turizm Departamentinin direktoru Əkbər Novruzov açaraq bildirib ki, Turizm Departamentində də pandemiya dövründə onlayn fəaliyyət davam etdirilib. “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın pandemiya dövründə onlayn formada icrası üçün kompleks iş aparılıb. Reklam-informasiya materiallarının hazırlanmasına diqqət artırılıb, sosial şəbəkələr vasitəsilə



fəaliyyət gücləndirilib. Naxçıvan Muxtar Respublikasının turizm loqosu hazırlanıb və təqdimat mərasimi keçirilib. Naxçıvan Muxtar Respublikasının turizm potensialı Naxçıvan Turizm İnformasiya Mərkəzinin sosial şəbəkələrdəki səhifə, qrup və kanallarında təbliğ edilib. Həmçinin kadr hazırlığı da diqqətdə saxlanılıb, mütəmadi olaraq onlayn konfrans və görüşlər keçirilib.

Çıxışda turizmdə yerləşdirmə xidmətinin səfərin ən əhəmiyyətli komponentlərindən biri olduğu vurğulanıb, pandemiya dövründə mehmanxana və mehmanxanatipli obyektlərin fəaliyyətinin təmini əhəmiyyət kəsb etdiyi üçün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunan “Koronavirus pandemiyası dövründə Naxçıvan Muxtar Respublikasında mehmanxanaların fəaliyyətinin təşkili Qaydaları” haqqında ətraflı məlumat verilib.

“Nəqşicahan Holding” Şirkətlər Qrupu Məhdud Məsuliyyətli Cəmiyyətinin direktor müavini Rifat Mahmudov bildirib ki, hər bir turizm obyekti qəbul edilmiş qərarların və görülən tədbirlərin əhəmiyyətini, bu sahədə öz üzərinə düşən məsuliyyəti dərk etməli, pandemiyanın qarşısının alınması ilə bağlı görülən işlərə öz töhfəsini verməlidir.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin Statistika və sertifikatlaşdırma sektorunun müdiri Həsən Kərimov Turizm Departamenti tərəfindən aparılan monitorinqlər barədə məlumat verib. Qeyd olunub ki, monitorinqlər zamanı işçi heyətə nəzəri və praktik tövsiyələr verilib, məlumatlandırıcı və xəbərdaredici plakat nümunələri təqdim edilib.

Tədbirin sonunda fəaliyyətində tələb olunan sanitariya və gigiyena standartları və normalarına əməl olunmasını təmin etdiyinə görə “Duzdağ” və “Təbriz” mehmanxanaları, “Saat Meydanı” hoteli və Ağbulaq İstirahət Mərkəzinə Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin sanitariya və gigiyena sertifikatı təqdim edilib.

**Xəbərlər şöbəsi**

*Payızın ilk vaxtları idi. Pəncərə qarşısında oturub payızın şıltaqlığını anbaan izləmək Yusifin ən zövq aldığı mənzərə idi. Ağacların yarpaqlarının tökülməsi, yerdə qalanlarının isə küləyin mehi ilə rəqsindən yaranan xışıltılı səsi onu həmişə özünə heyran qoyurdu. Saatlarla təbiətin keçib gedən işvəsinə, nazına tamaşa edirdi. Arabir yağan yağışlar, dolan buludlar da, sanki həvəskar həmdəmini dilə gətirirdi. Əlinə qarmon alıb, gözlərini yumaraq təsirlənib doyunca ifa edirdi. Deyirdi, payızda təbiətlə dilə gələn musiqi bir başqa olur, bir də ürək cuşa gələndə. İkisi də bir arada oldu, gəl görəsən. Yaxınları, dostları onun həyat dolu baxışlarını yüksək dəyərləndirir, özünəməxsus dəliqanlılığı ona çox yaraşdırırdılar. Zarafatsız bir günü olmazdı. Əsəblə, yersiz deyilmiş sözləri zarafata salmaq onun mərd obrazına xas idi. O mərdlik ki onu gələcəkdə qəhrəmanlığa yüksəldəcəkdi...*



# Haqq yolunda can qoyan ad qazanar, mərd ölər

***Portret hekayə***



*Qəhrəmanın müharibədən əvvəlki həyat tarixçəsi...*

Onun haqqında bacısı Naibə Mirzəyeva danışır: – Evimizdə ən şıltaq, dəcəl uşaq Yusif idi. Məktəbdə çox yaxşı oxumasa da, bütün müəllimləri onu sevirdi. Çünki çox mehriban, səmimi, sözü üzə deyən və zarafatcıl biri idi. Hər hadisəni incə yumor hissi ilə qarşılamağı xoşlayırdı. Çox gözəl səsi var idi. "Səkinə dayıqızı" ən çox sevdiyi xalq mahnısı idi. Onun qarmon üzrə musiqi təhsili də var idi. Bəstəkar Məmməd Məmmədovun sevimli tələbələrindən biri olmuşdu. Evdə həmişə Məmməd müəllimi təriflәyərdi. O qədər yaradıcı ruhu var idi ki, onu tanımayan insan ilk gördüyündə mütləq hansısa bir istedadının olduğunu başa düşərdi. Çünki davamlı zümzümə edərdi. Qulaq asmayanda da bərk əsəbiləşərdi. Bakıda universiteti bitirdikdən sonra Yusif vurğunu olduğu "allı-güllü Naxçıvanına" (özü həmişə belə deyirdi) qayıdıb, burada rabitə sistemində işləyirdi. Gördüyü hər maraqlı hadisəni mənimlə bölüşürdü. O dövrdə telefon əlaqəsi yaratmaq çox çətin məsələ idi. Rabitəyə kim müraciət edirdisə, nəyin bahasına olursa-olsun, onlara kömək etmədən yola salmırdı. Bir dəfə gəldi ki, bacı, yaşlı bir ana gəlmişdi, oğlunu axtarırdı, amma tapa bilmirdi. Ona köməklik göstərib, günlərlə yaşlı qadın üçün telefon əlaqələri saxlayıb, nəhayət ki, qadının oğlunu Tümen şəhərindən tapmışdı. Yadımdadır, idarələrində 25 qız vardı. 8 Mart – Beynəlxalq Qadınlar Bayramı Gününü səbirsizliklə gözləyər, cavan qızlara mücrü, ortayaşlılara isə corab alardı. Ümumiyyətlə, Yusif hədiyyə verməkdən çox xoşlanırdı. Hələ əsgərlikdə olarkən xərclik üçün ona evdən 100 manat pul göndərmişdik ki, əyin-başına baxsın. Amma o, həmin pulla bacıma və mənə hədiyyə almışdı. Yusif elə ürəyi geniş oğlan idi ki...

*Ölçüyəgəlməz hisslər onu Qarabağa apardı...*

Asif Mirzəyev (qardaşı): – Yusif uşaqlıqdan Vətən sevdalısı idi. Təbii ki, Vətəni hamımız sevirik, amma onun sevgisi bir başqa idi. Vətən haqqında şeirləri elə ürəkdən deyirdi ki, sanki yaşayırdı o misraları. Vətənin ən dar günlərindən biri olan 1990-cı ildə yanvarın 19-da yaralıları daşımasını, mərdliyini görən düşmənlər onu möhkəmcə döyüb həbs edirlər. Mən orada onu görəndə tanımadım. Elə yaralı vəziyyətdə idi ki, heç danışa da bilmirdi. Bir kəlmə dedi ki, "qardaş, millətimin başına çox zülm açırlar, oyanmaq lazımdır". Bu hadisələrin şahidi olması onu daha da qəzəbləndirmişdi. Bu ölçüyəgəlməz hisslər onu Qarabağa apardı. Könüllü müraciət edərək Vətənin müdafiəsi üçün döyüşlərə qatıldı. Həmin vaxtlar bacım Zəhraya getmək xəbərini deyəndə nə qədər yayındırmağa çalışsa da, fikrindən döndərə bilmir. Bacıma bir onu deyir ki, anama heç nə demə.

*Döyüş yoldaşlarının etiraflarından...*

Etiraflar ssenari müəllifi və rejissor Nizami Abbas tərəfindən çəkilən "İgid əsgər" sənədli filmində vurğulanır. Seyidağa Mövsümlü (Qarabağ müharibələrində iştirak edən hərbi operator): – Yusifin haqq yolu Azadlıq meydanından başladı, Qarabağın işğalı ilə də bitdi. Vətənpərvərlik hissinin insanda bu qədər güclü olmasının nəticəsi qəhrəmanlıq zirvəsinə ucalmaq idi. Ağdərə döyüşlərində çəkiliş üçün məni səngərə aparan Yusifin ilk mərdliyini, qayğıkeşliyini elə o səngərdə gördüm. Maraqlı bir əhvalatı sizinlə paylaşım. Səngərə çathaçatda bölük əsgərlərindən birinin yanından keçəndə Yusif ayaq saxlayıb onun yırtılmış ayaqqabısına fikir verdi. Əsgər ayağını gizlətməyə çalışsa da, onun gözlərindən yayınmadı. Əsgərin barmaqları soyuqdan göyərmişdi. Tələm-tələsik öz ayaqqabılarını çıxarıb ona verdi. Açığı, mən məəttəl qaldım. Çiynimə vurub dedi ki, mənə heç nə olmaz, amma ona qayğı lazımdır. Onda başa düşdüm ki, bu insanın xislətində mərdlik var. Qeyrətində ər var, namus var.

Ağdərə döyüşlərində şücaətlə vuruşub, 17 kəndin alınmasında, bölüyün mühasirədən azad olunmasında böyük qəhrəmanlıqlar göstərib, sağ ikən, hələ bu yüksək fəxri adla təltif olunmamışdan çox-çox əvvəl, Milli Qəhrəman kimi çağırılan Yusif Mirzəyevin ən gözəl xüsusiyyətlərindən biri də idarəçiliyi çox gözəl bilməsi idi. Bölgünü elə aparırdı ki, elə bil hərbi ixtisası bu saat başa vurmuşdu. Biz də bu qorxmazlıq ruhunu Yusifdən alırdıq. Bu cəsarətlə 14 nəfərlə 1000-ə yaxın erməninin üstünə gedirdik. Gecəboyu işıqları yandırmadan maşını sürüb qayıdanda fənərləri işə salırdıq ki, elə bilsinlər, sayımız çoxdur. Ya da ki, hərdən bir yerdən top atırdıq, guya başqa bölüklər də var. Bütün bu taktikalarda mərdliklə, qorxmazlıqla, cəsarətlə hamıdan öndə gedən (halbuki bu onun işi deyildi) o idi. Papağını da mənə vermişdi ki, yadigar saxla, bu mənim qeyrətimdir, bir şey olsa, itib eləməsin. Bir də müharibə bitəndən sonra tezliklə Naxçıvana getmək, anasını görməyi arzulayırdı. Deyirdi ki, birinci Vətənimi, ikinci anamı sevirəm. Mən də qəhrəmanımızın bu amalını gerçəkləşdirib, onun anasını ziyarət edib elə papağı da anasına verdim. Mənəviyyatı yüksək insanın amalı qeyrət, məqamı qəhrəmanlıq olar. Kadrlarda da qəhrəmanımız dəfələrlə səsləndirirdi. "Yumruq kimi birləşsək, bizi heç nə yıxa bilməz". Ölümün gözünə düz baxırdı, heç nədən qorxmurdu. Kadrların birində: – "3 gündür, Ağdərədən gəlmişik, buradayıq. Məcburam ki, bu qoşunu bir də aparam Ağdərəyə. O Ağdərə ki orada bir neçə qurban vermişik, Allaha da xoş getməz. Biz nə vaxt ayılacağıq?" Milli azadlıq ruhu onunla həyatı boyu birgə addımlayıb. Qəhrəman 1993-cü ilin fevralın 19-dan 20-nə keçən gecə bölüyü mühasirədən xilas edərkən mərmi yarası alır, çox qan itirdiyi üçün onu xilas etmək mümkün olmur. Sənədli filmdə Vaqif Bağırov, Etibar Həsənov (kəşfiyyatçı), Qəzənfər Babacanov (batareya komandiri) kimi döyüş yoldaşları da onun qəhrəmanlıq həyatından böyük qürurla söz açırlar.

*Qəhrəman oğulun qəhrəman anası...*

Qəhrəmanımızın anası sənədli filmdə müsahibə zamanı qeyd edir: – Yusif 1992-ci ildə döyüşə gedəndən sonra ilin sonuna yaxın oğlumla onu görməyə getdim. Ağdərəyə çatanda döyüş yoldaşlarından biri yaxınlaşdı. Dedim: – Yusifin anasıyam. Yusif məni görəndə yaman əsəbləşdi: "Ay ana, qurban olum sənə, müharibə hara, ana hara, burada nə işin var?" Dedim ki, eşitdim, yaralanıbsan, xəstəxanada yatıbsan, nigaran qaldım. Başımızın üstündə armud ağacı vardı, əsgərlərdən biri bir neçə armud qoparıb mənə verdi ki, ana, bu meyvədən ye. Dedim ay oğul, onu yetirən torpağa erməni ayağı dəyib, mən onu yeyə bilmərəm. Uşaqlar gülüşdülər. Yoldaşlarından biri: "Belə qəhrəman oğulun, belə qəhrəman da anası olar", – dedi. Nə qədər çalışdım evə gətirəm, dedim, ay oğul, canın əldən gedir, yaralısan axı. Məni dinləmədi ki, Vətən də əldən gedir. Mənim canımdan tapılar, amma Vətən torpağından tapılmaz. Yusif elə qəhrəman doğulmuşdu. Ölümündən sonra da Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Milli Qəhrəman" adını aldı. Yusif tarix oldu. Yusif ölmədi, Yusif həmişə qəlblərdə yaşayacaq.

*İgid əsgər, möhkəm dayan...*

*Ya azad ol, ya candan keç, ya candan keç…*
*İki yoldan birini seç, birini seç…*
*Azadlığın şərbətini iç, şərbətini iç…*
*İgid əsgər, möhkəm dayan…*

Vətənpərvərlik ruhlu, məktəblilərin oxuduqları nümunələri xor içərisində sevilərək ifa edilən musiqi Azərbaycan Respublikasının Milli Qəhrəmanı Yusif Mirzəyevə həsr edilib. Ağdərə döyüşlərində yaralanan Yusif xəstəxanada Şəmistan Əlizamanlı ilə bir palatada yatır. Palata həkimi Şahin Musaoğlu "İgid əsgər" mahnısının bəstələndiyini, amma oxuyanın olmadığını etiraf edir. Yusif yaralı olmağına baxmayaraq, şirin, xoşagələn avazı ilə xəstəxanada pəncərə önündə özünəməxsus şəkildə zümzümə edir. Allah belə mərd, cəsur, ürəkli insanlara mütləq bir istedad verir. Onun da istedadı musiqi duyumu idi. Hamı onun piano, qarmon ifası ilə yanaşı, məlahətli səsinin də vurğunu idi. Həmin mahnını da elə oxumuşdu ki, sanki gələcəkdə dillərdə dastan olacaq vətənpərvərlik simvolu kimi seçiləcək bir parça olduğunu bilirdi. İlk ifaçısı özü olan "İgid əsgər" mahnısı ilə bağlı dostu Şəmistandan xahiş edir ki, mən olmasam da, bu mahnını ifa edəndə mənim adımı mütləq çəkərsən. Mahnı ürəyinə necə yatmışdısa, hər gün zümzümə edirdi. Şəmistan dostuna söz verdiyi kimi ilk dəfə mahnını şəhidlik, Milli Qəhrəman məqamına çatandan sonra məhz ona ithaf edərək ifa edir. Bu azadlıq ruhlu musiqi parçası, beləcə, hər oxunanda mərd qəhrəman cəsur siması ilə gözlərimiz önündə canlanır.

*Yusifin gerçəkləşən arzuları...*

*P.S.* Ağdərə döyüşləri zamanı kameraman soruşur: "Yusif, ümid var?" "Onsuz da mən ümidlə gözləyirəm, mən bilirəm ki, gec-tez bu torpaq bizimdir. Bir arzum odur ki, vahid formada birləşək. Bu gün birləşsək, qalibiyyət bizimdir. Xankəndiyə çatacağıq. Ən böyük arzularımdan biri də Kəlbəcərə piyada getməkdir". Məzarında rahat uyu, Qəhrəmanım! Bu gün həsrətin bitdiyi günlər, qələbə çağıdır. Torpaqlarımızda haqsız axan nahaq qanların hesab günləridir. İllərdir, topladığımız güclə düşmənə layiqli cavab verildi, bu qələbə ilə torpaqlarımızı işğaldan azad etdik. Bütün mübarizə yolları bizi Qarabağa apardı. Sənin arzuladığın Kəlbəcərə də elə Naxçıvandan piyada gedib, arzunu böyük hörmətlə, fəxarətlə yaşadacağıq, Qəhrəmanım. Çünki haqq yolunda can qoyan ad qazanar, mərd ölər! Elə sənin kimi... Bu gün sənin "birləşək", "yumruq olaq" şüarlarının gerçəkləşdiyi məqamın zəfər ayıdır. Xalqla ordu birliyinin iğtişamını yaşayırıq. Vətənini sevən, yolunda canını əsirgəməyən qəhrəmanlarımız azadlığa doğru yol aldılar, qələbə qazandılar. İgid ayaqları dəyən Vətən torpaqlarında qədəmlərimiz xeyirli olsun! Anamız, andımız, iqamətgahımız, Vətən! Bu gün sənin qeyrətli oğullarının şücaətindən iftixarla, qürurla söz açırıq. Mərd oğullarının ucaldığı məqam qəhrəmanlıq və şəhidlik zirvələridir. Üçrəngli bayrağım işğaldan azad olan torpaqlarımızın ən uca zirvələrində dalğalanır. Vətən övladına həsrət qalan xarıbülbülüm çiçək açıb bizi qarşılayır. Şanlı illər, uğurlu qələbələr bizi sevinclə qarşılayır, iftixarla səsləyir...

**Türkan HÜSEYNLİ**

# İkiəsrlik münaqişənin 44 günlük zəfər salnaməsi

44 günlük zəfər yürüşü... Bu, adi yürüş deyildi. Bu yürüş tarixşünaslığımızın ikiəsrlik münaqişəli dövrünə son qoyan zəfər idi. Bu yürüş tarixin axarına yeni nizam verən zəfər idi. Bu zəfər iki yüz ildə itirilən torpaqların geri qayıdış zəfəri idi. Bu qayıdış haqqın geri qayıdışı idi. Bu qayıdış Ali Baş Komandanın müdrik siyasətinin, uzaqgörənliyinin nəticəsi idi. Bu qələbə ölkə rəhbərinin qurduğu müzəffər Azərbaycan Ordusunun qələbəsi idi. Düşmən tapdağında olan torpağımızın hər qarışının şəhid qanı və canı ilə qayıdışının qələbəsi idi. Xalqın həmrəyliyinin, milli birliyinin, ölkə rəhbərinə inam və güvəninin qələbəsi idi. Bu tarixi qələbəni isə xalqımız başqalarının yardımı, güclü dövlətlərin siyasəti ilə deyil, öz müdrik rəhbərinin başçılığı, Azərbaycan əsgərinin şücaəti, qəhrəmanlığı, şəhidinin qanı ilə qazandı. Azərbaycan əsgərinin şücaətini ukraynalı hərbi analitik belə yazırdı: "...Azərbaycan əsgəri Şuşanı piyada döyüşləri ilə daşına bilən ağır sursatlarla, duman içində, göz-gözü görməyən çətin hava şəraitində dağlardan keçərək qaytardı. Azərbaycan əsgəri Şuşanı PUA-sız, tanksız, artilleriyasız işğaldan azad etdi. ...Bu, Vətənə qayıdış, ədalətli tarixə qayıdış idi. Belə döyüş, dövlət, Vətən sevgisi görən olubmu?! Sualı cavablandırmaq, nə isə demək,



danışmaq çox çətindir. Şəhidi çiyinlərində, yaralını qollarında, döyüşə-döyüşə, qan-tər içində nəfəsini belə, dərmədən qalxırdı üzü dağyuxarı Şuşaya doğru Azərbaycan əsgəri..."

Bəli, Şuşa qələbəsi, Şuşa uğuru müzəffər Azərbaycan Ordusunun bütün güc-qüdrətinin, dünyanın ən müasir orduları sırasında yer aldığının, əsgər və zabitlərimizin igid, cəsur və qorxmazlığının, peşə bacarığı və ruh yüksəkliyinin bir daha təsdiqi idi. Şuşa qələbəsi, Şuşa uğuru Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətinin bir daha bütün dünyaya nümayişi idi.

Bununla Prezident cənab İlham Əliyev ölkəmizin milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə yüksəlməsi reallığını, sadəcə, sözdə deyil, əməldə göstərdi. Azərbaycan Ordusunun işğalçı üzərində qazandığı zəfər də bu reallıqları bütün aləmə bəyan etdi.

Beləliklə, ölkəmiz tarixi reallığı özünə qaytardı, tarixin haqlı axarına yeni başlanğıc verdi. Bizi də gələcək nəsillərin keçmişə boylananda hər zaman böyük qürur hissi ilə xatırlayacağı günlərin canlı şahidinə çevirdi.

44 günlük Vətən müharibəsi və 30 ilə yaxın dövr ərzində dırnağına kimi silahlanmış, çoxmərtəbəli yeraltı istehkamlar qurmuş və yalnız işğalçı ruhunda böyümüş düşmən üzərində qələbə bütün dünyaya bizim milli həmrəyliyimizi nümayiş etdirdi.

Bu tarixi qələbənin mənbəyi xalqımızın həmrəyliyi, cənab Ali Baş Komandanın ətrafında sıx birləşən vətəndaşlarımızın inamı və Azərbaycan Ordusunun məğlubedilməzliyi, qətiyyəti oldu. Dəmir yumruğu ilə tarixi və ilahi ədaləti bərpa edən xalqımızın sərkərdəsi əsrlərə, nəsillərə örnək və dastan olacaq qətiyyət və hünəri ilə Azərbaycan tarixinin keçmişinə və gələcəyinə adını qızıl hərflərlə həkk etdirdi!

Tarixi qələbə milli kimliyimizi, birliyimizi, gücümüzü və əzmimizi bütün dünyaya göstərdi. Artıq dünya liderimiz və xalqımız arasında necə möhkəm və sarsılmaz inamın varlığının şahidi oldu! Və həm də bu tarixi qələbə Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi olan quru yollarla birləşdirilməsini təmin etdi. O quru yol ki bərpası ilə ermənilərin ağrı-acısını əsrlərlə unutdurmayacaq.

Bəli, Ermənistan artıq həm döyüşdə, həm də siyasət meydanında məğlub tərəfdir. Və nə qədər çox təcavüzkarlıq sərgiləsə, bir o qədər çox uçuruma yuvarlanacaq. Necə ki hazırda İrəvanda siyasi proseslər idarəolunmaz hala çatıb, ictimai-siyasi böhran dərinləşib. Ermənistan iqtisadi uçurumla üz-üzə dayanıb.

Azərbaycan isə tarixi ədaləti, beynəlxalq hüququ bərpa edərək qələbənin sevincini yaşayır. O qələbəni ki milli birliyi, həmrəyliyi və əsgərinin döyüş zəfəri, qanı və canı ilə qazandı.

Bir sözlə, biz ədalət mübarizəmizi, tarixi və ilahi ədalət uğrunda savaşımızı Ali Baş Komandanımızın vədinə sadiq qalaraq qazandıq. Necə ki Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 17 il öncə verdiyi ***"Biz o torpaqlara qayıdacağıq", "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam"*** vədlərinə sadiqdir.

***Zəfər salnaməmiz, qələbəmiz mübarək olsun!***

**Arzu ABDULLAYEV**
***tarix üzrə fəlsəfə doktoru***

*Dövlət proqramı icra olunur*

## İdmanın inkişafı sahəsində həyata keçirilən tədbirlər davamlı xarakter daşıyır

*İdman qədim tarixə malik olan və çoxfunksiyalı xarakter daşıyan fəaliyyət növüdür. Bir tərəfdən insan sağlamlığının təmin olunmasının ən etibarlı vasitələrindən biri kimi qəbul edilən idman, digər tərəfdən ölkənin müxtəlif yarışlarda dünya səviyyəsində tanıdılmasında, gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılaraq düzgün istiqamətləndirilməsində və peşəkar idmançılar üçün məşğulluğun təmin olunmasında əhəmiyyətli rola malikdir. İdman artıq ölkəmizdə dövlət siyasətinin bir hissəsini təşkil edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir:* ***"İdmanın inkişafı bizim dövlət siyasətimizdir və idman infrastrukturunun yaradılması prosesi davam edir. Biz gələcək illərdə də bu istiqamətdə işlərimizi davam etdirəcəyik ki, hər bir rayonda idmanla məşğul olmaq üçün ən müasir şərait yaradılsın".***

Muxtar respublikamızda idmanın inkişafı diqqət mərkəzindədir və bu sahədə görülən işlər əhalinin sağlam həyat tərzinin təmin edilməsi üçün xüsusi önəm kəsb edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Sağlam cəmiyyət quruculuğunda və gənclərlə işin düzgün təşkilində bədən tərbiyəsi və idmanın mühüm rolu vardır. Muxtar respublikada idman sahəsi hər zaman diqqətdə saxlanılır, gənclərin idmana və təhsilə cəlbi istiqamətində ardıcıl tədbirlər görülür, hər il bədən tərbiyəsi və idmanın inkişafı ilə bağlı müşavirə keçirilir, vəzifələr müəyyənləşdirilir. Bu sahədə görülən işlərin nəticəsidir ki, muxtar respublikada sağlam nəsil yetişir. Gənclər zərərli vərdişlərdən uzaqdır. İdman sahəsində uğurlar qazanılır".*** Qazanılan uğurlarda əməyi olan idmançıların fəaliyyətinin qiymətləndirilməsi isə Naxçıvanda idmana göstərilən dövlət qayğısının mühüm təzahürüdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nda da bu istiqamətdə tədbirlər nəzərdə tutulmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 9 iyul tarixli Sərəncamı ilə idman sahəsi üzrə Babək rayon Vayxır kənd tam orta məktəbinin şagirdi Vüsal Seyidov Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüş və onun adı Gənc İstedadların "Qızıl kitabı"na yazılmışdır. İyulun 14-də – ulu öndərin ölkəmizə rəhbər seçilməsinin 51-ci ildönümündə keçirilən mərasimdə Ali Məclisin Sədri təqaüd kartını gənc idmançıya təqdim etmişdir.

Naxçıvanda əhalinin bədən tərbiyəsi və idmana meylinin gücləndirilməsi ilə bağlı təşkil olunan tədbirlər sosial faydalı əhəmiyyətə malikdir. İdmanın kütləvi xarakter almasına yönələn bu tədbirlər müxtəlif yaş qruplarına məxsus şəxslərin cəmiyyətin sosial-iqtisadi və mədəni həyatında iştirakını təmin edir. Dövlət proqramının icrasına uyğun olaraq idmançıların sağlam ruhda böyümələri, zərərli vərdişlərdən uzaq durmaları üçün iyulun 23-də "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında voleybol üzrə Şahbuz və Ordubad rayon komandaları arasında yoldaşlıq görüşü, boccia üzrə Babək rayon birinciliyi keçirilmişdir. Avqustun 6-da yeniyetmə və gənclərin fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi və Vətənin müdafiəsinə hazırlanması məqsədilə interaktiv tir üzrə birincilik təşkil olunmuşdur. Həmçinin 1 oktyabr – Beynəlxalq Ahıllar Günündə ahıl şəxslər arasında stolüstü idman oyunları üzrə muxtar respublika birinciliyi keçirilmişdir. Ümumilikdə, Naxçıvanda iyul-sentyabr aylarında əhalinin fiziki inkişafa, sağlam həyat tərzinə olan tələbatının ödənilməsi, idmanın kütləviliyinin təmin edilməsi məqsədilə 176 idman tədbiri təşkil olunmuşdur.






Muxtar respublikamızda qədim tarixə malik olan mühüm idman növlərindən biri şahmatdır. Özünəməxsus cəhətləri ilə fərqlənən şahmat insanda məntiqi və abstrakt təfəkkürün aktiv inkişafına ciddi təsir göstərir. Naxçıvanın şahmat üzrə müxtəlif beynəlxalq yarışlara ev sahibliyi etməsi bu idman növünün muxtar respublikamızda yüksək inkişaf səviyyəsində olmasından xəbər verir. Üçüncü rübdə Dövlət proqramının icrası istiqamətində Naxçıvan Şahmat Federasiyası tərəfindən Türkiyə şahmatçıları ilə onlayn qaydada təşkil olunan 5 şahmat yarışı bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsinin diqqət mərkəzində saxlanıldığını göstərir.

Müxtəlif yarışlarla yanaşı, müasir idman infrastrukturunun yaradılmasında da beynəlxalq səviyyədə təcrübə mübadiləsi mühüm əhəmiyyət daşıyır. Üçüncü rübdə Naxçıvan Futbol Federasiyasının nümayəndələri Uzunoba gölünün ətrafında inşa olunan Təlim-məşq Kompleksinin tikintisində beynəlxalq təcrübədən faydalanmaq üçün Türkiyənin Mersin şəhərində olmuşlar.

Bu dövrdə muxtar respublikada dövlət büdcəsi hesabına Uzunoba Su Anbarı ərazisində çimərlik futbolu meydançasının yaradılması başa çatdırılmışdır. İdman sahəsində pullu xidmət növlərinin inkişaf etdirilməsi də diqqət mərkəzində olmuş, Kəngərli rayonunda süni örtüklü futbol meydançasının yaradılması davam etdirilmişdir.

Naxçıvanda idman ən önəmli strateji sahələrdən biridir. Bu sahədə kütləviliyin təmin olunması ilə yanaşı, qazanılan uğurların sayının çoxaldılması və beynəxalq şöhrətli idmançıların hazırlanmasına xüsusi önəm verilir. Qeyd edilən məqsədə nail olmağın bir yolu da təcrübəli məşqçilər tərəfindən idmançılara təlimlər keçirilməsi və müxtəlif görüşlərin təşkil olunmasıdır. Bu istiqamətdə iyulun 23-də Azərbaycan Milli Paralimpiya Komitəsinin boccia üzrə milli komandasının baş məşqçisi ilə muxtar respublikada sağlamlıq imkanları məhdud 18 yaşadək bocciaçıların, avqustun 14-də isə komitənin stolüstü tennis üzrə uşaq milli komandasının baş məşqçisi ilə stolüstü tennislə məşğul olan paralimpiyaçıların onlayn formatda görüşü təşkil edilmişdir. Eyni zamanda muxtar respublikaya təcrübəli məşqçilərin dəvət olunması da davam etdirilmişdir. 21-25 sentyabr tarixlərdə Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının əməkdaşları tərəfindən Naxçıvanda futbol məşqçiləri üçün "C" kateqoriyalı məşqçilik kursları təşkil olunmuşdur.

Bütün sosial-iqtisadi fəaliyyət növlərində olduğu kimi, idman istiqamətində də ixtisaslı kadrların yetişdirilməsi və onların muxtar respublikanın idman həyatında aktiv iştirakının təmin edilməsi bu sahədə tərəqqini şərtləndirən amillərdəndir. Dövlət proqramının icrası məqsədilə üçüncü rübdə bədən tərbiyəsi və idman sahəsində tədrisin ixtisaslı müəllimlər tərəfindən aparılması diqqətdə saxlanılmışdır. Belə ki, bu dövrdə ümumtəhsil məktəblərində fiziki tərbiyə üzrə 12 ixtisaslı müəllim işlə təmin edilmişdir. Eyni zamanda ali təhsil müəssisələrində hamiliyə götürülən ixtisaslarda təhsil alan gənclərin muxtar respublikanın idman həyatında aktiv iştirakı da diqqət mərkəzində olmuş, 4 tələbə haqqı ödənilməklə Naxçıvan Muxtar Respublikasında keçirilən futbol oyunlarında hakim qismində iştirak etmişdir.

İdmançıların bu sahəyə marağının artırılması ilə bağlı görülən tədbirlər stimullaşdırıcı xarakter daşımaqla yanaşı, sosial əhəmiyyəti ilə də fərqlənir. Naxçıvanda üçüncü rübdə aztəminatlı ailələrdən olan 35 yeniyetmə və gəncin ödənişsiz idmanla məşğul olması üçün şərait yaradılmışdır. Həmçinin 66 idmançının müxtəlif geyim dəstləri və digər ləvazimatlarla mükafatlandırılması onların təminatlarının Dövlət proqramının icrasına uyğun olaraq diqqətdə saxlanmasından xəbər verir.

Muxtar respublikamızda fiziki imkanları məhdud insanların sosial rifahının yaxşılaşdırılması üçün lazımi şərait yaradılmışdır. Sağlamlıq imkanları məhdud şəxslərlə idmanın təbliği ilə bağlı həyata keçirilən tədbirlər isə onların cəmiyyətə inteqrasiyasını sürətləndirir. Məhdud fiziki imkanlara malik şəxslərdə bədən tərbiyəsi və idmana marağın artırılması onların müxtəlif yarışlara cəlb edilməsi ilə nəticələnir ki, bu da idmanın inklüziv cəhətini üzə çıxarır. Qeyd etmək lazımdır ki, Naxçıvan Üzgüçülük Mərkəzində sağlamlıq imkanları məhdud 10 şəxs üzgüçülük idman növü ilə məşğul olur. İyul-sentyabr aylarında bədən tərbiyəsi və idmanın məhdud fiziki imkanlı gənclərin reabilitasiyasında əhəmiyyəti ilə bağlı 40 gənc və onların valideynləri ilə maarifləndirici söhbətlər aparılmışdır. Həmçinin 12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə sağlamlıq imkanları məhdud gənclər üçün 4 videoçarx hazırlanmışdır.

Bədən tərbiyəsi və idman sahəsində kütləviliyin təmin olunması, ilk növbədə, geniş təbliğat işinin aparılmasından asılıdır. Naxçıvanda idman sahəsində görülən maarifləndirici tədbirlər idmançıların sayının artması ilə yanaşı, onların mənəvi-ideoloji baxımdan hazırlıqlı olmasında da əsaslı rol oynayır. İyul-sentyabr aylarında yeniyetmə və gənclər arasında idman növlərinin təbliği ilə bağlı sosial şəbəkələrdə 70 paylaşım edilmişdir. Bu məqsədlə müasir texnologiyaların imkanlarından istifadə olunması istiqamətində Gənclər Fondunun "Instagram" sosial şəbəkəsi üzərindən 2 müsabiqə keçirilmişdir. Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində, eləcə də sosial şəbəkə hesablarında Ağbulaq Xizəksürmə Mərkəzinin fəaliyyəti ilə bağlı 9 məlumat paylaşılmışdır. Üçüncü rübdə idmanın təbliği məqsədilə Naxçıvan Dövlət Televiziyasında 7 proqram, 4 veriliş, 1 film, 1 videoçarx efirə təqdim edilmiş, Naxçıvan Dövlət Radiosunda 23 veriliş hazırlanmış, "Şərq qapısı" qəzetində 2 yazı dərc edilmişdir.

*"2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası muxtar respublikada bədən tərbiyəsi və idmanın gələcəyimiz olan gənc nəslin sağlam, intellektual, hərtərəfli böyüməsinə hesablanmış məqsədyönlü, həm də perspektivli iş olduğunu göstərir.*

**"Şərq qapısı"**

## Ekoloji tədbirlər sağlam ətraf mühitə xidmət edir

***Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə uğurlu sosial-ekoloji siyasət oktyabr ayında da davam etdirilmişdir.***

Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi və meşə fondu torpaqlarından istifadə məqsədilə 8 yoxlama-reyd keçirilmiş, 2 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbirlər görülmüşdür. Muxtar respublikanın təbiətinin qorunması üçün inzibati tədbirlərdən daha çox ekoloji-hüquqi maarifləndirmə tədbirlərinə üstünlük verilir. Bu məqsədlə Şərur rayonunun Mahmudkənd, Babək rayonunun Kültəpə və ətraf kəndlərin nümayəndələrinin iştirakı ilə tədbirlər keçirilmiş, ətraf mühitin mühafizəsi, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları haqqında müzakirələr aparılmışdır.

Ay ərzində ekoloji monitorinqlər də davam etdirilmişdir. Bu məqsədlə Şərur, Sədərək, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 27-dən çox yaşayış məntəqəsi ərazisində monitorinqlər aparılmış, qarşıya çıxan bir sıra çatışmazlıqlar aradan qaldırılmışdır.

Ötən ay ərzində Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən Şir arxından hər birindən 4 su nümunəsi olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və Sədərək Rayon Su Monitorinq Laboratoriyasında 110 analiz aparılmışdır. Analizlərin nəticəsində sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması sahəsində mühüm amil olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmışdır. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı" və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" nın müvafiq bəndlərinə uyğun olaraq payız aylarında yeni yaşıllıqların salınması ilə bağlı ərazilərə baxış keçirilmiş, kənd təsərrüfatı əkinləri üçün yararsız olan sahələrdə meyvə bağlarının salınması, eroziya və şoranlaşmaya məruz qalmış torpaqların müəyyənləşdirilərək əkin dövriyyəsinə qaytarılması məqsədilə sxem-planlar hazırlanmışdır.

Payız aylarında yeni yaşıllıqların salınması ilə bağlı müxtəlif ərazilərdə, ümumilikdə, 8 hektarda torpaq hazırlığı işləri aparılmışdır. Ötən illərdə salınmış meyvə bağlarında bərpa əkini üçün çalalar qazılmışdır. Naxçıvan Sement Zavodunun ətrafında salınmış püstə bağında 35 hektar sahədə cərgələrarası kultivasiya olunmuş, sahənin otu biçilmiş, tinglərə aqrotexniki qaydada qulluq göstərilmiş, ərazinin bir hissəsində yeni damcılı suvarma sisteminin quraşdırılması müntəzəm şəkildə həyata keçirilmişdir.

Hesabat ayında yaşıllaşdırma tədbirləri davam etdirilmiş, Əshabi-Kəhf ziyarətgahına gedən yolun sağ və sol kənarlarında 1,5 hektar ərazidə 366 badam və 315 tut tingi ilə bərpa aparılmış, Ağbulaq Kənd-Turizm İstirahət Bölgəsinin ətrafında 12, "Badamlı" Mineral Sular Zavodunun ətrafında 7, Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində 1, Ordubad Milli Parkının Parağaçay ərazisində 3, Arpaçay Dövlət Təbiət Yasaqlığı ərazisində 2 olmaqla, ümumilikdə, 25 hektar sahədə həmərsin, badamça, yemişan, alça toxumları əkilmişdir.

İlin əvvəlindən təsdiq edilmiş toxum bölgüsünə əsasən hesabat ayında 280 kiloqram müxtəlif meyvə və meşə cinslərinin toxumları tədarük olunmuşdur. Toxum tədarükü mövsümə uyğun olaraq davam etdirilir.

Qış mövsümündə fauna ehtiyatlarının qaba yemə və daşduza olan tələbatının ödənilməsi məqsədilə, ümumilikdə, 500 kipə yaxın qaba yem, 8 tondan artıq daşduz ehtiyatı yaradılmışdır. Toplanmış qaba yem və daşduzun sahələrə daşınması və zəruri olan yerlərə yığılması davam etdirilir.

Muxtar respublika ərazisində meteoroloji şəraitin öyrənilməsi, hava haqqında dəqiq məlumatların, proqnozların hazırlanması, əlaqədar dövlət orqanlarının və ictimaiyyətin hidrometeoroloji məlumatlarla təmin edilməsi üçün zəruri tədbirlər ay ərzində davam etdirilmişdir.

Oktyabr ayında Şahbuz rayonunun Batabat yaylağında məskunlaşmış fermerlərlə fərdi maarifləndirici görüşlər keçirilmiş və yaylaqdan istifadə qaydaları, məişət tullantılarının idarə olunması haqqında söhbətlər aparılmışdır.

Təbii sərvətlərdən istifadəyə, çirkləndirici maddələrin ətraf mühitə atılması və axıdılmasına nəzarət həyata keçirilir. Ətraf mühitin qorunmasına xidmət edən ekoloji tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası***
***Ekologiya və Təbii Sərvətlər***
***Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Adıyev Ülvi Eldəniz oğlunun adına verilmiş Şərur şəhərindəki Heydər Əliyev prospektindəki 45/13 nömrəli mənzilin 102 nömrəli texniki pasportu və MH 0053120 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 862